# Qələm gerçəyi yazanda...



Qərib Mehdi
Gəncə şəhəri

*Tahir Həsənlini bir ilə yaxındır ki, tanıyıram. Təvazökarlığı səbəbindən yaradıcılığına dərindən bələd deyildim. Ancaq mənə təqdim olunan kitabındakı şeirləri (o cümlədən nəsri) ilə yaxından tanış olduqdan sonra belə qənaətə gəldim ki, o, sözə böyük hörmətlə yanaşan; xalqın, millətin, ulu Turan dünyasının problemlərini, dərdlərini, onun qeyrətli oğullarının göstərdiyi misilsiz şücaətləri lazımınca şeirə çevirən istedadlı qələm əhlidir. Xarakterində olan bütövlük, insana və insanlığa hörmət onun yaradıcılığına da sirayət edir:*

**Libasla kişilik ölçülə bilməz,**
**Hər şalvar geyəndə kişilik olmaz.**
**Kiminsə nahaqdan girib haqqına,**
**Haram mal yeyəndə kişilik olmaz.**

**...Pis kişilər adı, sanı itirər,**
**Yaxşı kişi yaxşı güllər bitirər.**
**Sadəlik insana hörmət gətirər,**
**Özünü öyəndə kişilik olmaz.**

Tahir Həsənliyə görə, kişilik, mərdlik, ata-anaya, övlada məhəbbət, böyük-kiçiyə hörmət, müqəddəs adət-ənənələri qorumaq hər bir insanın devizi, amalı olmalıdır.

Hər bir yaradıcı insanın xasiyyəti, əməlləri ilə yaradıcılığı vəhdət təşkil edəndə insan kamilləşir, bütövləşir və vətənləşir. Mənə elə gəlir ki, Tahir Həsənli belə insanlardan biridir. Bu, belə də olmalıdır. Çünki o, Azərbaycanın tanınmış igidlərindən biri, həmişə arxasızlar, yoxsullar dayağı olmuş Qaçaq Kərəm nəslinin layiqli davamçısıdır. Haqq-ədalət, düzgünlük bu nəslin həyat barometridir. Yaxşı deyiblər: Ot kökü üstə bitər.

Bir daha düşünürəm: Bəs bu kök haradan qaynaqlanır? Kitabı diqqətlə oxuyan oxucu sualın cavabını asanlıqla tapa bilər. Kitab iki hissədən ibarətdir: Şəcərə-povestdən və şeirlərdən. Şəcərə-povest «Bir sirdir, bilinmir yaşı dağların» adlanır. İkinci hissədə toplanmış şeirlər üç yarımbaşlığa bölünmüşdür: «Azərbaycan, ayaq üstə dursana», «Ata evi, nur işığı» və «Yaxşı kişi yaxşı güllər bitirər». Bunlardan əlavə, əlyazma variantından doğan təəssüratlar da (Allahverdi Səfərovun «Əyilməz vüqar dağların ucalığından xəbər verir» və Salman İmanlının «Böyük ürək sahibi, duyğulu insan») «Dost sözü» rubrikası altında oxuculara bələdçilik edir. Kitabın redaktorluğunu şair-jurnalist Ramiz Təmkin öz üzərinə götürmüşdür.

*Həm nəsri, həm də poeziyanı bir toplumda oxucuya təqdim etmək müəllifdən məsuliyyət tələb edir. İstər-istəməz oxucuda müəllifin ustalığı barədə müqayisə imkanı yaranır: hansı janrda müəllifin qələmi daha bəhrəlidir? Burada uduzan da müəllif olur, udan da. Çünki onun rəqibi elə özüdür. Bu səbəbdən hər qələm sahibi bu «müqayisəli döyüşə» girişmir. Tahir Həsənli özünə məğlub olmaqdan və özünə qələbə çalmaqdan çəkinmədiyi üçün bu cəsarətli addımı atmışdır. Mənim ilkin təəssüratım belədir ki, şair kimi tanınan Tahirin nəsri heç də poeziyasından geri qalmır.*

Avtobioqrafik povestdən məlum olur ki, Tahir Həsənli Daşkəsən rayonunun Əmirvar-Qazaxlı kəndində dünyaya göz açıb. Kəndin adındakı bu ad cütlüyü nədən xəbər verir? Əsəri oxuduqca məlum olur ki, Həsənlilər nəsli Qazaxdan Daşkəsənə köçmədirlər. İllər keçsə də, kökdən rişələnmə onların həyatında, xarakterində, dünyagörüşündə büruzə verir.

On doqquzuncu əsrin əvvəllərində Qori seminariyasının Azərbaycan bölməsi Qazağa köçürülür. Şuşa Azərbaycanın musiqi mərkəzi sayıldığı kimi, Qazax da ədəbi mərkəzi hesab edilir. Bu ədəbi aura çoxşaxəlidir. Araşdıranda bir çox siyasətçilər, hərbiçilər, idarəçilər də bu torpağa bağlı olub. Elə qazaxlıların yaxın rayonlarda məskunlaşması maarifçiliyə, idarəçiliyə xeyli təkan verib.

Həsənlilər ailəsinin başçısı - atası Fəxrəddin kişini Tahir belə xarakterizə edir: «Atam mağaza sahibi, el dili ilə desək, dükançı idi. Ticarətçi olmasına baxmayaraq kənddə hamı onu halal adam kimi tanıyırdı. Hamı ona «Fəxrəddin dayı» deyərdi. Hər gün evimiz qonaq-qaralı olurdu. Tanınmış incəsənət xadimləri, görkəmli şair və ziyalılar dəfələrlə qonağımız olmuşlar. Tanıdıq-tanımadıq, qapımıza gələn hər kəsə hörmət-izzət göstərirdik».

Atanın da atası, yəni Tahir müəllimin babası Qaçaq Cahanın ələobaya sığmayan bir adı vardı. Ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar, bolşeviklərin müstəqil Xalq Cümhuriyyəti hökumətini devirməsi vətənpərvər qüvvələrin müqaviməti ilə qarşılanmış, qaçaqlar hərəkatı belə yaranmışdır. Sonralar sovet sistemi onlara əl verən «qaçaqlar» haqqında dastanlar yaratmağa icazə vermişdir. Vətənin istiqlalı uğrunda mübarizə aparanların adları isə yasaqlanmışdı. Kitabda bu tabu-qadağa götürülür, bir basalaqda necə igidlərin yetişdiyi bilinir. Yenə müəllifə müraciət edirəm: «Bu dağlar Çar hökumətindən, Sovetlərdən narazı qalan, öz yazılmamış qanunları ilə ədalət axtaran namuslu, qeyrətli, insaflı kişilərin - Dəli Alının, Qandal Nağının, Qarapapaq Qaçaq Mehralının, Qaçaq Şahmalının, babam Qaçaq Cahanın, Məcid ağanın, Mustafa ağanın, Qaçaq Məmmədqasımın və digərlərinin son ümid, son sığınacaq yeri idi. O kişilər ki, həmişə əzilən, haqqı danılan kasıb zümrənin yanında olmuşlar: «Arxalıya sən şırmanma heç zaman; Arxasıza arxa olmaq çətindir». Bəli, bu kişilər həmişə arxasıza arxa olmuşlar. Aşağıdakı rübaidə uluları haqqında qənaətini bir daha təsdiqləyir:

**Zəmanə yetirir sərt kişiləri,**
**Yağı düşmənlərə dərd kişiləri.**
**Heç kəsin önündə əyilməmişdir,**
**Nəslimin, yurdumun mərd kişiləri.**

Qaçaqçılıq hərəkatı işğalçılara qarşı aparılan mübarizə ilə bitmir. Əsərdə İsrafil ağa ilə Qaçaq Kərəmin daxili münaqişəsi də kifayət qədər yer almışdır. Bu münaqişə təəssüf hissi doğursa da, tərəflərin bir-birinə qarşı mərdlik mücəssəməsi nümayiş etdirməsi Azərbaycan türklərinin əxlaqından, mənəvi bütövlüyündən xəbər verir.

*İnsanın cəmiyyətin bir fərdi olması ilə kifayətlənmək olmaz. O, həm də onu əhatə edən təbiətin məhsuludur. Təbiət dağı, dərəsi, gülçiçəyi, yaşıl meşəsi, durna gözlü bulaqları, ceyran-cüyürü, mügənni quşları ilə zəngindir. Bu zənginlik onun qoynunda doğulan insana da sirayət edir, onu böyük sevgiyə qovuşdurur, natamamlıq kompleksindən uzaqlaşdırır. Tahirin nəsrində və poeziyasında bu valehedici mənzərələr vurğunluqla təsvir olunur.*

Əsərdə milli adət və ənənələrimiz - Xıdır İlyas, Novruz bayramlarımız da belə təsvirlərin ustadı sayılan Şəhriyar qələminin şirinliyilə nəqş olunur. Toylarda at çapmaq yarışlarının keçirilməsi, qəlibin müəyyənləşdirilməsi də bir başqa aləmdir. Tahir gəncliyində adətən belə yarışların qalibi olar, indiki kubok anlamına gələn nəmərlər alardı.

Düz yol tutmaq, düz xətt çəkməkdən çətindir. Tahir Həsənli yeniyetməliyindən yolunu müəyyənləşdirdi: həmişə ədalətin yanında olmalı, haqqa tapınmalı, şirnikləndirici vədlərə uymadan düzgün mövqeyində möhkəm dayanmalı. Bu keyfiyyətlərlə süslənənlər haqqını tələb edir, faydalı əməyi ilə Vətənə oğul olurlar. Oxucu şəcərə-povestdən öyrənir ki, Tahir Həsənli orta məktəbdə də, ali məktəblərdə də (o, iki universitetin - Gəncə Dövlət və Aqrar Universitetlərin məzunudur) oxuyanda dəfələrlə neqativ hallarla qarşılaşmış, iradəsi, əzmi sayəsində sınmamış, yolundan dönməmiş, məqsədinə çatmışdır. T.Həsənli 1987-ci ildən Gəncədə yaşayır. 17 saylı tam orta məktəbdə idman müəllimi işləyir. Düzlüyünə, ədalətin mövqeyinə görə pedaqoji kollektivdə yüksək nüfuz sahibidir.

Yenə ömürnaməsindən öyrənirik ki, Vətənin ən ağır günlərində Tahir xalqla birlikdə olub. Milli azadlıq hərəkatının fəal iştirakçısı olub, birinci Qarabağ müharibəsində işğalçı erməni faşistlərinə qarşı mərdliklə vuruşub. O, bu dönəmi həyatının ən mənalı illəri sayır. Axıracan öz mövqeyini dəyişməmək az adama nəsib olur. Tahirin yolu qələm-saz babası Pir Sultan Abdalın yoludur: «Dönən dönsün, mən dönmərəm yolumdan».

Şair, yazıçı, pedaqoq olan Tahir müəllim millətini sevən bir türk-Turan sevdalısıdır. Bu, şovinizmdən uzaq bir sevgidir. Adını unutduğum bir xristian yetkilisi deyib: «Hər yanda ədalət görmək istəyirsinizsə, dünyanı türklərə tapşırın». Türklük ədalətlə qoşa olduğu üçün Tahir Həsənli (bu keyfiyyətlərinə görə mən ona Tahir Turan deyirəm. Ola bilsin gələcək kitabını bu imza ilə dərc etdirsin) bu sevdanın vurğunudur. Onun yeddi bəndlik «Türkiyəm» şeirində bu işarələr göz önünə gətirilir. Şeirdən bir parçaya diqqət edək:

**Dayağım, qalxanım, ey böyük Vətən,**
**Düşmənin canını alan Türkiyəm!**
**Dünyanı əl altdan oynadanların**
**Canına vəlvələ salan Türkiyəm!**

**Basılmaz ordusu, qoy bilsin hamı,**
**Bayrağı al rəngli - şəhidin qanı.**
**Lərzəyə salıbdır bütün dünyanı,**
**Tarixdə xilaskar qalan Türkiyəm!**

Tahir Həsənli həm də peyğəmbər yoluna sadiq islamçıdır. Dindən gələn mənəvi saflaşma onun yazılarında özünü göstərməkdədir.

*Azərbaycan tarixində hökmdar-şairlər ədəbiyyatımızı xeyli dərəcədə zənginləşdirmişlər. Müasir dövrdə də bu ənənənin çoxlu mikrovariantları var. Tahir müəllim də bu sıradadır. Ailə kiçik dövlətdir. Həsənli ailəsinin başçanı Tahirdir. Tahir müəllim bu kiçik ailə-dövlətdə vətənimiz üçün layiqli vətəndaşlar tərbiyə edib, boya-başa çatdırmışdır. Poetik istedadının məhsulundan onlara pay ayırmaqda qələmi əsməmişdir. Hərəsinə bir şeir ithaf etmişdir.*

Tahir Həsənli poeziyasını şərtləndirən məqamlar onun açıqlığıdır. Bu açıqlıq, fikir aydınlığı folklorumuzdan qaynaqlanır. Onun qələmi modern ədəbi üsullardan, tapmacavari meyllərdən uzaqdır. Qələm əhli həmişə üç problemlə üzləşib: nədən yazmalı, necə yazmalı və nə vaxt yazmalı? Hər sənətkar birinə üstünlük verib. Gerçəyi yazanda oxucu müəllifdən razı qalır. Nədən yazmalı məsələsi Tahirin poeziyasında daha qabarıq hiss olunur. O, gerçəkliyi, vacibliyi ədəbi materiala çevirməyə üstünlük verir. Kimlər daha çox haqlıdırlar? Bu suala dürüst cavab vermək səlahiyyəti münsiflər heyəti hesab etdiyimiz oxuculara məxsusdur.

Bu kitab Azərbaycan ordusunun erməni vandalizmi üzərində çaldığı möhtəşəm qələbədən əvvəl nəşr olunub. Yaralı Vətənin taleyi üçün narahat olan şair vətənpərvər bir ziyalı kimi minlərin, milyonların adından oyadıcı çağırışda bulunmağı vacib sanıb:

**Azərbaycan, adın böyük salnamə,**
**Nə yatmısan, ayaq üstə dursana!..**
**Qərinədən qərinəyə çapdığın,**
**Yorulmayan köhlənini yorsana,**
**Vaxt deyilmi, Qarabağı alsana!..**

*Şair, zaman gəldi, çağırışın eşidildi. Azərbaycan ayağa durdu və işğalçı erməni ordusunu darmadağın edib, əsarətdə olan torpaqlarımızı azad etdi. Bununla da sənin Qələbədən sonra doğulacaq kitabına yeni qapılar açıldı.*




**(Tahir Həsənli. «Yaxşı kişi yaxşı güllər bitirər». Bakı, "Elm və təhsil" nəşriyyatı, 2019)**

***Düz yol tutmaq, düz xətt çəkməkdən çətindir. Tahir Həsənli yeniyetməliyindən yolunu müəyyənləşdirdi: həmişə ədalətin yanında olmalı, haqqa tapınmalı, şirnikləndirici vədlərə uymadan düzgün mövqeyində möhkəm dayanmalı. Bu keyfiyyətlərlə süslənənlər haqqını tələb edir, faydalı əməyi ilə Vətənə oğul olurlar. Oxucu şəcərə-povestdən öyrənir ki, Tahir Həsənli orta məktəbdə də, ali məktəblərdə də (o, iki universitetin - Gəncə Dövlət və Aqrar Universitetlərin məzunudur) oxuyanda dəfələrlə neqativ hallarla qarşılaşmış, iradəsi, əzmi sayəsində sınmamış, yolundan dönməmiş, məqsədinə çatmışdır***